*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 146-154* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

İradə Musayeva*

# ZƏRDÜŞTİLƏRİN FƏLSƏFİ DÜŞÜNCƏLƏRİ BƏDİİ MƏTN KONTEKSTİNDƏ

***(Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romanı əsasında)***

***Xülasə***

Məqalədə romanda fərd və cəmiyyət münasibətləri, ali insan şüuru bu münasibətləri tənzimləmə prinsiplərinin vəhdəti təsvir edilir. Dünya, təbiət, cəmiyyət haqqında fəlsəfi tezislərini konkret həyati misallarla isbatlayan Yusif Vəzir dünyanı iki qeyri-maddi qüvvələrin (xeyir və şər) mübarizəsi meydanı hesab edən zərdüştilərin, misirlilərin, hindlilərin mifik təsəvvürlərini romanına gətirir, fəlsəfi təxəyyül metodlarının formalaşmasının ibtidai qaynaqlarını açıb göstərir.

O, "Qızlar bulağı" romanında insanı daima düşündürən bu cür məsələləri geniş müzakirə obyektinə çevirir, bu haqda düşüncələrini özünəməxsus tərzdə fəlsəfi mühakimələr vasitəsilə oxucuya çatdırır. Həyatın mənasını "dirilikdə və maddilikdə" görən Y.V.Çəmənzəminli insan anlayışını, onun həyatını bitki və heyvan kimi üzvi və canlı aləmlə əlaqəli şəkildə izah edir. "Müvəqqəti həyat, əbədi ölüm" tezisi zərdüştilik təliminin nəzəri ehkamları fonunda izah edilir. Mütəfəkkir yazıçı cəmiyyət timsalında, yeni-yeni insan nəsillərinin yaranması sayəsində həyatın əzəliliyini sübut etməyə çalışır. Yazıçı zərdüştilik fəlsəfəsinə realist kimi yanaşır. Maddi başlanğıclardan, real həyatdan kənarda, illüziya xarakterli nişanələri həyatın təhrifi hesab edir. "Qızlar bulağı" romanında Azərbaycan coğrafiyasının eskizini cızır, azərbaycanlıların etnik mənşəyini şərh edir. Romanda müəllifin yaşadığı zamanın ictimai-siyasi, sosial mənzərələrini rəsm edən səhnələr də çoxluq təşkil edir.

**Açar sözlər:** Y.V.Çəmənzəminli, "Qızlar bulağı", tarixi roman, zərdüştlük təlimi, fəlsəfi təxəyyül metodu, mifik təsəvvür, ədəbi etüd

## PHILOSOPHICAL THOUGHTS OF ZOROASTERS IN THE FIGURATIVE CONTEXT OF THE TEXT

***(On the basis of the novel "Maiden Spring" by Y.V.Chamanzamanli)***

***Summary***

The article demonstrates that in the novel the complex of relationships of person and society, regulating principles of these relationships by the supreme human consciousness is described. Yusif Vazir, who has proved his philosophical ideas about the world, creation, nature and society with concrete examples, uses mythical ideas of Hindus, Zoroaster, Egyptians who consider the world as a fight area of the two powers (good and bad) and reveals the primary sources of the formation of philosophical imagination methods. In his novel called "Maiden spring", he considers such kind of problems, that always make a person think, as a point at issue and about this issue he reflects his thoughts to the readers in his own way, by means of philosophical judgements. Y.V.Chamanzaminli, who sees the meaning of life in vitality and materiality, explains the notion of human and his life like plant and animal, in connection with organic and alive life. The thesis "temporary life, eternal death " is explained by means of theoretical tenets of Zoroaster school. In example of society, the thoughtful writer tries to prove the eternality of life by means of the formations of new human generations. The writer regards illusive signs, that are far away from material beginnings and real life, as distortion of the life. In the novel "Maiden spring", he draws a sketch of the primary beginning of geography of Azerbaijan. There are a number of scenes which reflects public, political, social views of that time that the author had experienced.

**Key words:** Y.V.Chamanzamanli, "Maiden spring", historical novel, zoroastrianism school, philosophical imagination method, mythical idea, literary study

* Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi. E-mail: iradateacher2011@rambler.ru

**ЗОРОАСТРИЙСКИЕ ФИЛОСОФСКИЕ МЫСЛИ В КОНТЕКСТЕ ХУДОЖЕСТВЕННОГО ТЕКСТА**
***(По роману Ю.В.Чеменземинли «Девичий Родник»)***

***Резюме***

В статье показано, что в романе описана взаимосвязь между индивидом и обществом. Юсуф Везир, который излагает свои философские тезисы о мире, творчестве, природе и обществе, привносит в роман зороастрийское, египетское и индийское мифическое воображение, которые считают мир полем битвы двух нематериальных сил (добра и зла), раскрывает основные источники философского воображения. Он превращает подобные вопросы в более широкую дискуссию в романе «Девичий родник». Ю.В.Чеменземинли, который видит смысл жизни в «жизненности и материализме», объясняет концепцию человеческой жизни по отношению к органическому и живому миру. Тезис «Временная жизнь, вечная смерть» объясняется в свете теоретических учений зороастризма. Писатель пытается доказать вечность жизни на примере общества, в котором рождаются новые поколения людей. Писатель относится к зороастрийской философии как реалист. Он считает искажением жизни за пределами материальных начал, основанную только на иллюзиях. В романе «Девичий родник» он описал азербайджанскую географию и представил этническое происхождение азербайджанцев. В романе также создаются сцены общественно-политических, социальных сцен исторического периода жизни автора.

**Ключевые слова:** Ю.В.Чеменземинли, «Девичий родник», исторический роман, зороастризм, метод философского воображения, мифическое воображение, литературный этюд

**Giriş.** XX əsrin 20-ci illərinin sonu, 30-cu illərinin əvvəlləri romana keçid yeni dövr romanlarının təkamül mərhələsi kimi səciyyələnə bilər. Roman janrı üçün ədəbi mərhələ (sovet dövrü) xüsusiyyətləri, ideya-estetik prinsiplər, siyasi mahiyyət daşıyan metodoloji təlqinlər, sosialist realizminin nəzəri qanunları əsas meyara çevrilmişdi. Bir çox roman tədqiqatçılarının fikri ilə razılaşmayaraq qeyd etmək istərdik ki, həmin dövr Azərbaycan romanları dünya ədəbiyyatında yaranan romanlardan həm forma, həm də mövzu, mahiyyət baxımından təcrid olunmuşdu. Məzmunda və süjet quruluşunda qlobal, bəşəri genişlik, ideyada yeni dünyanın, yeni əsrin ədəbi-estetik prinsipləri görünmürdü. Ədəbiyyat, eləcə də roman yaradıcılığı üçün sovet ideoloqları tərəfindən cızılan dairənin "nəzəri qanunları" buna icazə vermirdi. Bəzi istisnalar vardı ki, Y.V.Çəmənzəminlinin romanları da o qəbildən idi.

Bir çox tədqiqatçılar kimi professor T.Salamoğlu da XX əsrin 30-cu illərini ədəbiyyat tariximiz üçün xüsusi roman mərhələsitək səciyyələndirir və göstərir ki, XX əsrin 30-cu illəri "Azərbaycan sovet romanı"nın yaranması ilə də xüsusi dəyər qazanır. 30-cu illərdən milli müstəqillik dövrümüzə qədərki onilliklər həm də "Azərbaycan sovet romanı"nın inkişaf tarixidir [1, s.6]. Roman janrının sovet dövrü öz mövzu və ideya konsepsiyasına görə müxtəlif istiqamətlərdə inkişaf edirdi. "Sovet romanları"nın böyük əksəriyyəti tendensiya və ideoloji diktələr əsasında yazıldığı üçün əsl ədəbiyyat faktı kimi yaşaya bilmədi.

Y.V.Çəmənzəminli isə folklor və tarix materiallarından bədii mətn süjeti üçün daha əhəmiyyətli şəkildə yararlanmışdı. "Nağıllarımızı necə toplamalı", "Xalq ədəbiyyatının təhlili", "Folklor yolunda", "Azərbaycanda zərdüştlük adətləri" və başqa məqalələri yazıçının xalq ədəbiyyatına nə qədər dərindən bələd olmasını göstərirdi. İdeal cəmiyyət modeli klassik ədəbiyyatımız, eləcə də N.Gəncəvi ideallarına əsaslanan fəlsəfi görüşləri fonunda təsvir edilirdi. Çəmənzəminlinin "Qızlar bulağı" romanında mifoloji strukturlu obrazlar və motivlər xalq ədəbiyyatının müxtəlif janrları ilə bir arada təsvir edilir. XX əsr Azərbaycan nəsrində özünəməxsusluqları ilə seçilən "Qızlar bulağı" romanı ilk dəfə 1934-cü ildə nəşr olunmuşdur. Y.Vəzir "Qızlar bulağı" romanını Şura Yazıçılarının Ümumittifaq qurultayına ithaf edib. İnqilabdan əvvəl yazmağa başlasa da, bu əsəri 1933-cü ildə başa çatdırmışdı. Romanda zərdüştilərin fəlsəfi düşüncələri bədii mətn kontekstində "maddi" və "abstrakt" anlayışlarının qarşılaşdırılması üslubu ilə dialoqlarda izah olunur. Materializm ilə

idealizmin mübarizəsi nəzəri olaraq müqayisə və təhlil edilir. İlk məlumat isə bu olur ki, Əhməd "Maarif işçisi" klubunda ibtidai cəmiyyətə dair məruzəçi olacaq, ona görə də ibtidai mədəniyyət, xalq ədəbiyyatı, adət və ənənələr tarixinə aid əsərlərdən, Şərq və Qərb səyyahlarının qeyd dəftərlərindən istifadə etməlidir. Topladığı kitablardan biri – "Yel" ulusuna mənsub Çopo adlı şəxs tərəfindən yazılmış və XIX əsrin ortasında Avropa dillərinə tərcümə olunmuş bir əsər Əhmədin diqqətini çəkir. "Yel" ulusu meşəli dağlar arasında, çayın kənarında salınıb. Yeni evləri və gənclərdən ibarət cəmiyyəti olan bu ulus mühafizəkarlıqdan uzaqdır, insanlara bütün seçimlərində azadlıq verilib. Hətta adət-ənənə buxovundan da yaxa qurtarıblar.

Y.V.Çəmənzəminlini illərlə düşündürən milli kimlik sualı təkcə tarixi-siyasi, publisistik araşdırmalarında qalmadı. Həm də bu taleyüklü məsələni roman mətnində təhlilə çəkdi. Bizim bir xalq olaraq təşəkkül və təkamülümüzün sxemini, coğrafiyasını müəyyənləşdirməyə çalışdı. Romanın son qənaəti kimi aşılanan ideya – "lakin muğ mətanəti qırılmadı, atırvan ordusu pozulmadı!"- Azərbaycanın tarix boyu işğallardan, müstəmləkə əsarətindən qurtulması reallığını sübut edir.

Yazıçı 1934-cü ildə "Gənc işçi" qəzetində çap olunmuş "Qərardan sonra" adlı məqaləsində "Qızlar bulağı" romanını yeni mənbələrə istinadən tamamilə dəyişib fərqli bir əsər kimi işlədiyini qeyd edirdi. "Qızlar bulağı"nın tarixi roman olmasını da ilk dəfə müəllif özü yazır. 1935-ci ildə yenə "Gənc işçi" qəzetində çap olunmuş "Qərardan sonrakı yeni əsərlərim" və "Vışka" qəzetində çap olunmuş "Etimadı doğruldacağam" adlı yazılarında roman üzərində dönə-dönə işlədiyini bildirirdi.

"Dünya ədəbiyyatında "Qızlar bulağı" kimi əsər yoxdur, yəni bu tipdə. Kampanellanın "Günəşlər ölkəsi", Tomas Morun "Utopiya adası" var, amma onlar başdan ayağa xəyaldan ibarətdir. "Qızlar bulağı"nda isə xəyal ilə gerçək bir-birinə qarışdırılır. Burada xəyal ilə tarix birləşir. Bu fəlsəfi-tarixi romandır. Fəlsəfi-tarixi roman dünya ədəbiyyatında az-az adamlarda var. Bizdə isə bu janrın ilk nümunəsini Çəmənzəminli yaradıb" [2].

1930-cu illərdə tarixi-siyasi romanlar yox dərəcəsində idi. Sosializmin təntənəsi, kolxoz quruculuğu, kollektivləşmə ideyaları aparıcı mövzu kimi diqqət mərkəzinə çəkilmişdi. Tarixi romanların müəllifləri isə Y.V.Çəmənzəminli və M.S.Ordubadi idi. Professor T.Hüseynoğlunun da qeyd etdiyi kimi Paris Milli kitabxanasına üzv olan və orada 2-3 ay araşdırma aparan yeganə yazıçımız və alimimiz olan Çəmənzəminli tarixi mükəmməl bilirdi. 1923-26-cı illərdə Çəmənzəminli Paris yaxınlığındakı Klişe şəhərində yaşayıb və bu zaman Paris Milli kitabxanasına üzv olub. Orada Azərbaycanla bağlı bütün materialları toplayıb, beləliklə, tarixi yaxşı öyrənib [2].

Roman Xoruz qəbiləsinin tarixinə səyahətlə başlayır. Kəbusey gil kərpiclərin üzərindəki mixi yazıları şagirdlərinə oxutdurur. Orada Yaxın Şərqin eramızdan iki min il əvvəlki həyatının məğzi təsvir edilirdi. Bu tarix gedib Şumer dövrünə çıxır və əsərdəki bir çox süjet, obraz və motivlər Şumer tarixi, ədəbiyyatı, mədəniyyəti ilə qırılmaz tellərlə bağlıdır.

"Qızlar bulağı" romanı başlayan kimi müəllim Kəbusey sonuncu dərs olduğunu deyir. O, gənclərə Xoruz qəbiləsinin tarixini öyrətmək istəyir və bildirir ki, bütün bunlar mixi xətti ilə gil kərpiclərin üzərinə yazılmışdır. Burada istər mixi yazının, istərsə də kərpiclərin adının çəkilməsi şumerləri yada salır. Hazırda dünyanın ən iri muzeylərində təxminən 200 min yazılı gil kərpic – gil kitab saxlanılır. Onların böyük bir hissəsi şumer dilində yazılmışdır. Mixi yazısı və gil kitablar şumerlərin dünya mədəniyyətinə verdikləri ən böyük töhfədir [3, s.245].

Kəbusey şagirdlərinə danışır ki, vaxtilə güllü-çiçəkli qəbilə əvəzində burada boş bir çöl varmış. Qəbilənin yaradıcısı, buranı abad edən midiyalı Cəməsb olmuşdur. Bu yerlərin tarixi onun tərcümeyi-halından başlayır. Yazıları kərpiclərə özü həkk etmişdir. Cəməsb zərdüşti imiş. Lakin Zərdüştün bəzi qanunlarına etiraz etdiyi üçün vətənini tərk etmək məcburiyyətində qalmışdı.

Süjetin ekspozisiya hissəsindən etibarən hadisələrin gedişində dönüşlər olacağı və obrazların xarakter baxımından fərqli situasiyalarda dəyişiləcəyi ehtimalı sonrakı hissələrdə öz təsdiqini tapır. Əsərin baş qəhrəmanlarından biri olan Cəməsb zərdüştilik inancı ilə yaşasa da, bir din və ehkam kimi bu inancın bütün qanunlarına, qaydalarına əməl etmir. Dünyanı cismani, maddi yaradılış kimi

qəbul edir. Cəməsb bu üsyankar təbiəti ilə bir məkanda qərar tuta bilmir. Onun daxilində əsrlərlə donub qalmış itaət və ibadət obyektlərinə qarşı qəzəb hissi coşur. Bu hal təsadüfən baş vermir. Ölmüş anasının daxmada (cəsədxanada) gözlərini vəhşi bir quş dimdikləyib yeyəndə, atası və böyük qardaşı tərəfindən bacısı Jinduqta qarşı zor tətbiq ediləndə, möbidin və Şiz adlı təlim rəhbərinin riyakarlığı hər addımda təzahür edəndə sanki onun içində yeni, daha humanist və daha bəşəri qanunlar doğulur. Xeyirxahlıqdan, rəhmdillikdən moizə oxuyan rəhbərlər yeməyə başlayarkən, yanlarındakı çocuqlara yedikləri quzu budunun ancaq sümüklərini atır. "Ayin bitər-bitməz rəhbərimiz Şiz hərəmizin belinə kosti adlanan bir qayış bağladı: belimiz zərdüştiliyə bağlanırmış. Möbid uzun-uzadı nəsihətlər etdi və bizi ruhani rəhbərimiz olan Şizə tapşırdı. On beş yaşına qədər bu adam bizə rəhbərlik edərək sadiq zərdüştilər yetişdirəcəkmiş. Halbuki o, əllərini ac qurd kimi quzu buduna uzadandan bəri ürəyim ondan soyumuşdu" [4, s.351].

Cəməsb var gücü ilə xoşbəxt olmağa, bütün ağılkəsməz qanunlara qarşı çıxmağa çalışır. Amma bu yolda onun verdiyi ilk qurban bacısı Jinduqt olur. Qanuna əsasən, bu gənc qız anasının ölümündən sonra atasına arvad olmalı idi. Böyük qardaş da bacısı ilə evliliyə iddialı olduğu üçün ailədə faciə başlayır. Jinduqt qalanın başına çıxaraq intihar edir. İlk təmizlənmə və etiraz qanla, ölümlə reallaşır. Dəyişmə, bayağı ənənələrdən, iyrənc adətlərdən (atanın qızı ilə, qardaşın bacısıyla evlənməsi) xilas olma prosesi cəsarət və qurban tələb edir. Bütün roman boyu cəmiyyətin və qəbilənin şüurlu, özünü və ətrafını dərk edən üzvlərinin daşlaşmış və çürümüş mənfi təmayüllü adətlərə qarşı mübarizəsini müşahidə edirik. Məhv edilən hər pis, ibtidai şüur səviyyəsinə hesablanmış adətlər müqabilində daha sivil, mədəni, etik və müsbət qarşılanan əxlaq kodeksləri çərçivəsində müəyyənləşən prinsiplər, qanunlar yaradılır. Bu yenidən yaratma, yenidən qurulma, mənəvi və cismani baxımdan təmizlənmə yenilikçi gənclər tərəfindən icra olunur. Hətta yeni qəbilədə 40 yaşından yuxarı adam tapmaq belə mümkün deyil. Hadisələrin yaz fəslində cərəyan etməsi yenilənmə, canlanma, təzələnmə təntənəsi olan Novruz bayramı ilə bağlıdır. Həyatı ali insani keyfiyyət hesab edilən şüurla dərk etmək, heyvani, instinktiv reaksiyalardan yaxa qurtarmaq, cəmiyyət əxlaqının qorunması naminə fədakarlıq göstərmək, daima təkamüldə, inkişafda olmaq yeni yaradılan qəbilə üçün əsas meyarlar idi. İnkişaf etmiş cəmiyyətlərdə insan yaşadığı mühitin təmizliyinə, əxlaqi-etik normallığına cavabdeh kimi tanınır. O insan ki, öz şüuru və mükəmməl düşüncələri ilə özünü və cəmiyyətini xeyir – Ahura Mazda yoluna təşviq edir.

Romanda Ahura Mazdanın fikirləri ("Yer demiş: məni əkən şad olar, əkməyən isə qəmgin olar. Buğda yerə səpiləndə divlər acıqlanar, buğda cücərəndə divlər hirslənər; buğda sünbül sallayanda divlər çatlar!", "Divlərə xidmət edən köçəbələrdir, – özləri əkməz, başqalarının da əkinini tapdalar", "Ən fərəhli yer İnsanın ev tikəcəyi yerdir! Ən fərəhli yer çox taxıl əkilən, çəmənliyi olan, bol meyvə ağacları bulunan yerdir! Ən fərəhli yer qadın, çoluq-çocuq, heyvan sürüsü və ilxısı olan yerdir!", "Ən əziz heyvan pəridardır (xoruz – İ.M), çünki o, sabahın açılmasını xəbər verir. Ən əziz heyvan itdir, çünki sizi köçəbə turanlılardan saxlayır!", "Dünyada dərd verənlər Əhrimənin yaratdıqları divlər, andırlar, nəslər, çorlardır. Dünyanı kədərləndirən soyuq, xəstəlik, qaranlıq, köçəbəlikdir..." və s.) işığın, ülviyyətin, zəhmətin və sevginin təzahürü kimi ifadə olunur. Yenilikçi gəncliyin yeni yaratdığı ulus, qəbilə də şər simvolu Əhrimənin deyil, xeyir və işıq saçan Ahura Mazdanın bu nəzəriyyələri ilə silahlanaraq fəaliyyət göstərir. İşıqdan, xeyir və pislikləri yandıran atəşdən yoğrulmuş bir cəmiyyət, el, oba romanda gələcək Azərbaycanın ibtidai modeli kimi səciyyələnir. Cəməsbin atası Muğandan gəlmiş bir atırvan (od keşikçisi azərban) idi. Çocuq ikən Muğan atəşgədəsində xidmətçiliyə başlamış və eyni zamanda bu atəşgədə yanında dərs oxumuşdur. Qayda bu idi ki, onun nəslindən olan oğlanlar da burada xidmətkar olsun. Lakin Cəməsb bu qaydanı da pozur.

Romanda göstərilir ki, qaranlıq, Əhrimən, divlər daima işıq allahı Ahura Mazda ilə ziddiyyətdədir. "Avesta" abidəsinin dini-fəlsəfi, sosial-mədəni, tarixi aspektləri romanın əsas ideya mənbəyidir. Müəllifin "İncil", "Tövrat" və "Qurani-Kərim"i oxuması, bəşəriyyət tarixində dini təlimlərin mahiyyətini dərindən dərk etməsi faktı əsər boyu özünü təsdiqlədir. Şərq xalqlarının

arxaik mifoloji təfəkküründə mifik obraz kimi formalaşan divlər bu əsərdə nağıl qəhrəmanlarıtək sadə səciyyəli deyil, daima xeyirə qarşı vuruşan mifik, əslində gözə görünməyən, güc çatmayan qüvvədir. Bu təsvirlərdəki divlər İslam dinində, "Qurani-Kərim"də xarakterizə edilən İblisin missiyasını daşıyır. Məhz "Avesta" abidəsindəki xarakterizələrə əsasən sonradan yaradılan xalq nağıllarında da divlər qorxulu, savaş və mübarizə meydanını sonuncu, 40-cı qapıdan idarə edən qeyri-insani obraz kimi təqdim edilir. Zərdüştilikdə div mürəkkəb situasiyaların güclü idarəedici qüvvəsi kimi izah olunur.

Lakin çox zaman işığı təbliğ edənlərin özü işığa qarşı mübarizə aparanlar olur. Zərdüştilik təliminin təbliğçiləri dilləri ilə dedikləri fikirlərə uyğun yaşamadıqları üçün öz şagirdlərini belə xeyirxahlıqdan uzaqlaşdırır.

Y.V.Çəmənzəminlini bu mövzu, xalqımızın tarixi o qədər dərindən maraqlandırmışdı ki, hətta 1937-ci ildə yazdığı "İki od arasında" romanında da bu tarix, tarixin kitabı haqqında məlumat verilir. M.P.Vaqif İbrahim Xəlil xanın ən qəzəbli vaxtında söhbətin yönünü dəyişmək istəyir:

"– Xan, – dedi – bu gün əlimə qəribə bir kitab düşüb, bu ölkənin tamam qədim əhvalat və qəziyyələri yazılmışdır. Bilirsən ki, təvarixin müştaqiyəm. Xan maraqlanan kimi oldu: hirsi o saat yatdı. Vaqif xanda olan dəyişikliyi sezərək, sözlərinin arasını kəsmədən nağıl eləməyə başladı: – Hələ hicrəti-xatəmələnbiyadan (Məhəmmədin Məkkədən Mədinəyə köçməsindən – İ.M.) min il qabaq bizim bu Qarabağda zərdüştilər yaşarmış. Turan elləri Dərbənddən, səddi-İskəndərdən keçib, buraları yəğma edərmişlər. "Şahnamə"də rəvayət olunan İran-Turan davası bizim Kür ilə Araz arasında vaqe olmuşdur... Bizim bu ölkənin başından çox qəribə qəziyyələr gəlib keçmişdir. Ağası bəy asudə nəfəs alaraq özünü düzəltdi, quru, lakin möhkəm döşünü irəli verərək söhbətə qarışdı: – Rəhmətlik Pənah xan Əfşar Fətəli xanın üstünə gedəndə, məlumi alinizdir ki, mən yaralanıb bir neçə vaxt Ərdəbildə yatdım. Bəylərbəyi məni bir dərviş zaviyəsinə tapşırmışdı. Orada pustnişin bir qoca şeyx var idi. Gecə-gündüz ibadətlə məşğul idi. Özü də həkimi-haziq idi: yaramı da yaxşı eliyən o oldu. İbadətdən sonra yanıma gəlib döşəyimin yanında oturardı. O da bu qəziyyələri mənə demişdi. Onun dediyinə görə Aran böyük bir ölkə imiş, məqərrər-səltənəti (mərkəz şəhəri) də Gəncədə imiş. Amma Allah bu gözəl ölkəyə ilanı qənim yaratmış imiş: gürzələr, əfilər bu yerdə qaynaşırmış... İbrahim xan tamamilə sakit olub, maraqla soruşdu:

– Bəs bu ermənilər harada imiş? Vaqif sakit səslə: – Ermənilər buralara çox sonralar gəlmişlər; bunlar Çingiz və Teymurləngin zülmündən qaçıb, bu dağlara sığınmışlar. Görmürsənmi, erməni yaşayan yerlərə "sığınaq" deyirlər... ermənilər başıbəlalı tayfa olublar" [4, s.535].

Mif və əfsanə, ehkam cəfəngiyyatına qarşı çıxan, dünyanı daha çox maddi, real tərəfləri ilə yaşamağa cəhd edən Cəməsb yuxu və fal gerçəkliyinə işarə edən hadisələrdə fərqli inancla təsvir edilir. Yəni, yuxuya və fala inanaraq baş verən hadisələri izləməkdə davam edir. Falçının dediyi, özünün yuxuda gördüyü hadisələr reallaşır. Şamanlıq, şaman ayinləri ilə əlaqələndirilən fraqmentlər qoca falçının gələcəkdən verdiyi xəbərlərlə izah olunur. Cəməsb və Jindiqutun qarşılaşdığı falçı qocanın ehtimalla sıraladığı hadisələr romanın süjeti boyunca qeyd olunur. Cəməsb qan üzərindən adlayıb (bacısının ölümü) azadlığa çıxır. Məbəddən qaçır, qadağaları bəzən qaydaya çevirə bilir, bəzən isə qaydaları qadağa kimi təlqin edir. Zərdüştilik təlimini öyrədən Şizdən və məbəddən qaçan Cəməsbi həbs edirlər, lakin yuxuda gördüyü yolla azadlığa buraxılır.

Hadisələrin hamısı mixi yazılar vasitəsi ilə oxunmur, müəyyən məqamlarda təfsilata varmaq istəməyən Kəbusey ümumiləşdirmə apararaq kərpicdəki yazıların oxunuşunu dayandırır, mətləbi qısaldır: "Təfsilatına lüzum görmürəm. Əcdadımız Midiyadan Urartu ölkəsinə gedir. Bunu tutub, qul deyə bazarda satırlar. Bir mülkədar alıb, onu evə gətirir. Mülkədarın gözəl bir qızı varmış. Cəməsblə qız bir-birini sevir. Məsələni mülkədar duyur, əvvəl rədd cavabı verir. Sonra qızının ahzar etdiyini nəzərə alaraq Cəməsbə bir təklif edir: "Yeddi il doğru xidmət etsən, qızımı sənə verərəm", – deyir. Cəməsb razı olur. Səmimi olaraq xidmətə başlayır. Dördüncü il mülkədar ölür, qızla Cəməsb evlənir. Bu əsnada Kapadosya Urartu ölkəsinə hücuma başlayır. Buna əlavə olaraq bir də daxildə iğtişaş baş verir. Yaşayış şəraiti fənalaşdığı üçün Cəməsb ailəsini və əqrəbalarını

götürərək Aran ölkəsinə keçir”. [4, s.358] Aran ərazisində bina edən qəbilənin tarixi beləcə təsvir olunur. Və o da vurğulanır ki, bu qədər zəhmət sərf olunmuş qəbiləni qorumaq, adət-ənənəsini sevmək lazımdır. Yaşayış qanunlarını isə onlara Xanburabi öyrətmişdi. Son sözü “cəmiyyətinizə daima sadiq olun”, – tapşırığı idi.

Xoruz qəbiləsinin gəncləri Çopo ilə Ceyniz arasındakı dialoqlar, polemikalar çox zaman “Studentlər” romanındakı gənclər arasında olan millət, xalq və cəmiyyət problemləri ilə bağlı danışıqları xatırladır. Adətlərdən şikayətlənən Ceyniz bu itaət və adətə sadiqliyi “sürü” davranışına xas əlamət kimi səciyyələndirir. Söhbətin məzmunu sadə görünsə də, məğzi, ideyası aktual, XX əsrin problemi kimi səslənir.

“Ceyniz istehza ilə güldü: – Tühafsan, Çopo, – dedi. – Sən durğun həyat aşiqisən. Deyirsən, aman, asayiş pozular. Qoca müəllimlərin təsiri səndə dərin köklər atmışdır. Bircə şeyi nəzərdən qaçırırsan. Tariximizi bilirsən, amma qəbilə həyatına keçməmizin əsl səbəblərini dərk edə bilmirsən. Cürət edib bu sözü deyirəm. Bağışla! Qəbilələrə Babil, Midiya, Kapadosya, Urartu, Pars, Xaldeya, Pont-Öksin sahillərindən belə adamlar toplanmışdır. Səbəbi? – Bəlli: orada yaşamaq üsulu çəkilməz bir hala gəlmişdir. Saray istibdadı, müharibə, daxili iğtişaşlar, dərəbəylik, din naminə qan tökmələr, zorluların əmlak iştahası xalqı zara gətirmişdir” [4, s.367].

Romanda “7” rəqəmi ilə bağlı simvollaşma N.Gəncəvinin “Yeddi gözəl” əsərini xatırladır. Yeddi Xoruz məbədi, yeddi xoruz başlı daş sütunlu möhtəşəm bina, məbədə çıxan yeddi pilləli iri daş pilləkənlər, hər pillədə oturub ney çalan əlvan geyimli, xoruzu qalpaqlı, uzun saqqallı yeddi qocanın yeddi ibrətamiz hekayəti. Yeddi qübbəli saray, yeddi ulduzlu səmanın təsviri, yeddi gözəl qız və yeddi ərən və s.

Əsərdə hakimiyyət və xalq, dirçəlməkdə olan bir məmləkətin başı üzərini alan təhlükələr, millət kimi azadlıq qapılarının sanki birdəfəlik bağlanması nüansları da qabardılır. Göstərilir ki, “Qürur yavaş-yavaş sarayı qapladı. Zərdüşt ehkamları unudulmağa başladı, hökmdarla təbəələr arasına sədlər çəkildi, xalqın səsi eşidilməz oldu. Astiyaz (Midiyanın son hökmdarı) kefə daldı. Babil qızları, Ellin oğlanları saraya hakim kəsildi; pars şərabı beyinləri dumanlandırmağa başladı. Midiya əzəməti sarsıldı. Əhrimən qanadlarını aləmə sərdi. Dəbdəbəmizə çoxdan bəri həsədlə tamaşa edən pars baş qaldırdı. Kürüşün (Pars səltənətini təsis edən) qılıncı Midiya səltənətinə xitam verdi. Assuriya, Lidiya, Elam və iskitləri titrədən ordu parslar tərəfindən ricətə sövq edildi... Atəşlər söndü, bağlar xarabalığa döndü, abadanlıq dağıldı, yer inlədi, göylər ağladı... Lakin muğ mətanəti qırılmadı, atırvan ordusu pozulmadı və iman qülləsi baqi qalaraq, düşmənlərə qarşı için-için kin bəslədi...” [4, s.369]. “Lakin muğ mətanəti qırılmadı, atırvan ordusu pozulmadı və iman qülləsi baqi qalaraq, düşmənlərə qarşı için-için kin bəslədi” – fikrinin təhlili, 1935-ci ildə təhlükəli görünürdü. “Atrıvan” – odu qoruyan bir xalq (Azərbaycan – İ.M) müstəmləkəyə çevrildisə də, içində kin dolu intiqam hissi ilə yaşamağa başladı. Bu məqamda onu da qeyd etmək istərdik ki, 1937-ci ildə “Studentlər” romanı ilə yanaşı, “Qızlar bulağı” əsəri də kəskin tənqidlərə məruz qalmışdır. Aydındır ki, bu romanların mövzu-ideya baxımından tənqidi siyasi xarakter daşıyırdı.

1935-ci ilədək əsərləri mütəmadi olaraq çap olunan və təriflənən yazıçı romanları işıq üzü görən zamandan etibarən kəskin tənqidlərə məruz qalır. Repressiya hərəkatı ilə nəşri eyni zamana düşən romanlar barədə ardıcıl olaraq ittiham xarakterli yazılar çap edilir. Diqqət edək: “Kommunist” qəzetinin 1936-cı il, 26 mart tarixli sayında çap edilən “Ədəbiyyatda formalizm və naturalizm əleyhinə”, M.Ələkbərlinin “Kommunist” qəzetinin 1936-cı il, 17 aprel tarixli buraxılışında işıq üzü görən “İlk yekunlar”, M.Ələkbərlinin “İnqilab və mədəniyyət” jurnalının 1936-cı il, 4-5-ci sayındakı “Tənqid-sosializm realizmi uğrunda mübarizə” və elə jurnalın həmin nömrəsindəki Ə.Sadıqın “Mübahisə davam edir”, H.Əfəndiyevin “Kommunist” qəzetinin 1936-cı il, 24 fevral sayında nəşr edilən “Həqiqi yenidən qurulma yollarına!”, yenə H.Əfəndiyevin “Ədəbiyyat qəzeti”nin 1936-cı il, 07 noyabr tarixli sayında çap edilən “Nəsrimiz yüksəliş yollarında” adlı məqalələrdə Y.V.Çəmənzəminlinin romanları, o cümlədən “Qızlar bulağı” kəskin tənqid edilir. Hidayət Əfəndiyev və Əli Vəliyev onun əsərlərini daha çox və ən ağır ittihamlarla tənqid edənlər

sırasında idi. H.Əfəndiyev hətta "Ədəbiyyatda kontrrevolusion sarsaqlama" adlı məqaləsi ilə ("Kommunist"qəzeti, 1937-ci il, 10 aprel) onun "Studentlər" (Bakı, Azərnəşr, 1935) əsərini anti-sovet ideyalı roman kimi səciyyələndirmişdir.

Bütün bunların nəticəsi olaraq 1937-ci ildə Azərbaycan Sovet Yazıçıları İttifaqı üzv və namizədlərinin ümumi iclasının qərarı ilə Y.V.Çəmənzəminli və digər yeddi nəfər ziyalının Yazıçılar İttifaqı üzvlüyündən azad edilməsi barədə "Ədəbiyyat qəzeti"nin 1937-ci il 23 iyul tarixli sayında məlumat verilir, Azərbaycan Sovet Yazıçıları İttifaqının III plenumunda Y.V.Çəmənzəminlinin yaradıcılığı haqqında kəskin tənqidlər səsləndirilir ("Ədəbiyyat qəzeti", 1937-ci il, 27 mart).

"Pravda" qəzeti ədəbiyyatda repressiya mexanizmini "sistemləşdirmək" üçün "Formalizm və naturalizm əleyhinə" sərlövhəli yazı dərc etmişdir. Bu məqalənin tezisləri Azərbaycan Yazıçılar İttifaqında son illərin irihəcmli əsərlərini təftiş etməli idi. "Ədəbiyyat qəzeti"nin 14 aprel 1936-cı il nömrəsində çap edilən müzakirədə M.Hüseyn demişdir: "Qoy, Yusif kimi görkəmli yazıçılarımız öz son əsərlərinin siyasi məndərəcəsini, konsepsiyasını dərindən təftiş etsinlər. Belə olsa, onların bugünkü quruluşumuza münasibəti artıq nitqlərdə deyil, əvvəlcə ürəkdə, sonra isə bədii əsərlərdə ifadə olunacaqdır... Yusif Vəzirə gəlincə, burada məsələ daha da mürəkkəbləşir. Onun son əsərləri, xüsusilə də "Qızlar bulağı" və "Studentlər" romanı, şura ədəbiyyatının fikri yüksəlişini ifadə etməyir. Bütün səmimiyyəti və qətiyyətilə göstərməliyik ki, Yusif Vəzir, inqilabın ən qəti momentlərindən birini – 1917-ci ili, yəni bizim ədəbiyyatımızda ən aktual dövrlərdən birini götürməsinə baxmayaraq, yenə də yeni sənət cəbhəsinə, sosialist realizmi cəhbəsinə keçməyib" [5].

Lakin repressiya ilinin ən ağır zamanında əsəri haqsız tənqidlərdən qorumağa çalışan adamlar da vardır. Sonralar özü də repressiya qurbanı olan S.Hüseyn həmin adamlardan biri idi: "Mən "Kommunist" qəzetində dərc edilən Hidayətin tənqidi haqqında da bir neçə kəlmə söyləmək istəyirəm. Nəhayət, Çəmənzəminlinin "Qızlar bulağı"nı tənqid edərək yazır ki: "Çəmənzəminli özünün ədəbi xüsusiyyətində, tarixi mühit içərisində tipik xarakteri, bu xarakterin necə təşəkkül etdiyini və ən tipik şəraitdə necə hərəkət etdiyini aça bilmir". Çəmənzəminlinin bu əsərində böyük tarixi romanlara xas olan möhkəm süjet xətti, kompozisiya vəhdəti, orijinal bədii əda və forma xüsusiyyətləri görünmür. "Qızlar bulağı" tam mənada tarixi roman olmaqdan ziyadə, ədəbi etüd və ya tarixi romana eskizdir".

Məncə, əgər "Qızlar bulağı" öz məndərəcəsi etibarilə qiymətli əsərdirsə, onun tarixi roman olmaması, onun üçün nöqsan deyildir. Bu cəhətdən əsəri tənqid etmək, məncə, doğru deyil. Bilirsiniz ki, bizim ədəbiyyatımızda roman yenidir. Odur ki, hələ forma cəhətcə bizim romanlarımızı tənqid etmək doğru deyil" [6].

Y.V.Çəmənzəminli romanda bir çox bəşəri problemlərin bütün zamanlarda təkrarlandığını, sinifli cəmiyyətlərdə istismarın xarakterini, saray hakimiyyətinin patriarxal qanunlarını açıb göstərir. Bir gün xəstələnib işə çıxmayan qulu çubuq altına salıb öldürürlər. Minlərcə qul tökülüb, firon məmurlarını qətlə yetirir. "Zülmün mənbəyi saraydır, saray!" – şüarlı üsyanlar baş qaldırır.

N.Gəncəvinin "Yeddi gözəl" mənzum romanındakı kimi ibrətamiz hekayətlər söylənilir, lakin gözəl qadınların dilindən yox, ərənlərin dilindən eşidirik. Firon ordusu tüğyan edən üsyanları amansızlıqla yatırır. Yüzlərlə insan öldürülür.

Qızlar bulağında özünə həyat yoldaşı seçəcək gənc oğlanlar Xoruz qəbiləsindəndir. Qızlar bulağı Qoç qəbiləsinə mənsubdur. Qəbilə, tayfa, ulus ayrı-seçkiliyi edilmədən ortaya yeniliyin, dəyərlərə, əxlaq, mənəviyyat və ağıla söykənən səmərəli fəaliyyətin modeli qoyulur. Gənclər ailə qurmaq məqamına yetişəndə valideynlərinin də dediyi kimi, zahiri gözəlliyə deyil, dəruni və sabit, dəyişməz mənəviyyata üstünlük verirlər.

"Ceyniz adəti üzrə istehza ilə güldü: – Mühafizəkarlıq həyata durğunluq verir, – dedi, – halbuki durğunluq həyata yakışmayan bir sifətdir. – Bu doğru, – dedim; – ancaq mühafizəkarlığa riayət olunmazsa, əsrlərin təcrübəsindən istifadə edilməz. Ənənə cəmiyyətin rüknüdür. – Ənənə olmasa

cəmiyyət yaşamazmı? – Yaşar, lakin sarsıntı ilə yaşar. – Ənənə deyil, ağıl, daha doğrusu, kollektiv bir ağıl lazımdır [4, s.396].

"Yel" ulusu yeni bir ittifaqa, yeni bir cəmiyyətə xas olan toplumun simvolu kimi ifadəsini tapır. Qəbilələrdən sürgün olanlar "Yel" adlı ulusa təşrif gətirirlər. Adətlər, ənənələr çox zaman bir-birinə zidd durum yaradır. Məsələn, əvvəllər, zərdüştilikdə qəbilədən, ailədən kənar evlənmə adətə zidd idi, sonralar isə qəbilədaşların evlənməsi günah sayıldı. Bütün qadağa, yasaq, insan iradəsinə və mənəviyyatına, əxlaqına zidd adətlərə qarşı amansız mübarizə başlanılmışdır. Və bu mübarizənin ilk addımı "Yel" ulusuna köçmək qərarı ilə atıldı.

"Y.V.Çəmənzəminli filosof olmasa da, onun yaradıcılığında bəşəriyyətə mütərəqqi ideyaları, zəngin dünyagörüşləri ilə xidmət edən elm və zəka korifeylərindən Aristotel, Sokrat, Demokrit, Herodot, Horatsi, Plutarx, Oqyust Kont, F.Nitsşe, J.J.Russo və başqalarının fəlsəfəyə, ədəbiyyata, tarixə dair əsərləri xüsusi yer tutur, çoxlu mütaliə etməklə onların mütərəqqi fikirlərinə yiyələnmişdir. "Studentlər" və "Qızlar bulağı" romanlarında "dünyanın vəhdətini" onun maddiliyində görən, həyatın daima diri və maddi bir qüvvə olması, maddə və həyatın bir-birindən ayrılmazlığı və s. filosofların bu və ya digər fikirlərini təsdiqləyən Yusif Vəzirin müdrik kəlamlarının düzgün əsaslandırılması məqamlarına toxunulmuşdur. Müəllif Y.V.Çəmənzəminlinin dinlə bağlı görüşlərini də açıqlamış, onun dinə yenilik donu geyindirməklə kosmopolit din yaratmaq istəyən bəzi bəhayi və vəhhabi tərəfdarlarını qəti və konkret çıxışları ilə geri oturtduğunu, yalnız mənsub olduğu İslam dininə bağlı olduğunu əsaslandırmışdır" [7, s.5-6].

Romanda fərd və cəmiyyət münasibətlərinin, ali insan şüurunun bu münasibətləri tənzimləmə prinsiplərinin vəhdətini görürük. Dünya, yaradılış, təbiət, cəmiyyət haqqında fəlsəfi tezislərini konkret həyati misallarla isbatlayan Yusif Vəzir dünyanı iki qeyri-maddi qüvvələrin (xeyir və şər) mübarizəsi meydanı hesab edən zərdüştilərin, misirlilərin, hindlilərin mifik təsəvvürlərini romanına gətirir, fəlsəfi təxəyyül metodlarının formalaşmasının ibtidai qaynaqlarını açıb göstərir.

Romanda Ceynizin dilindən deyilən "Çopo, əvvəl mən də başqaları kimi qəbilə həyatına zidd idim. Səfəri yaşayış, macəralar, saray təntənəsi hələ beynimi istila etmədə idi. İlk zəhmət mənə yeni bir zehniyyət bağışladı. İndi keçmişin xəstə irsindən tamamilə xilas olmuş bir adamam, səadətimin hüdudu yoxdur"– mülahizəsi bizə iki müxtəlif yanaşmanın mesajını verir. "Keçmişin xəstə irsi" – dedikdə Ceyniz adət və ənənəsini tərk etdiyi köhnə, çürümüş, heyvani münasibətlər əsasında davam etməkdə olan qəbiləni nəzərdə tutur.

Kitabın əvvəlində romanını Şura Yazıçılarının Ümumittifaq qurultayına həsr etdiyini yazan Y.V.Çəmənzəminli finalda üslubuna zahiri don geydirərək özünü müdafiə "tədbirləri" görmək istəyir. Türk mədəniyyəti sarayını tərk edib "Kommunist" küçəsinə doğru addımlayan Əhməd "Qızlar bulağı" kitabını bağlayır.

"Əhməd kitabı yumdu. Lakin fikir və xəyalı kitabdan ayrılmaq istəmədi. Çopo, Nuşa, Ceyniz, şair Milnir, xaqan və Ərdica ətrafına toplanaraq bütün macəraları ilə onu əhatə etmişdilər. Əhməd özünü "Yel" ulusdaşı zənn edərək "Türk mədəniyyəti sarayı"nı tərk etdi. Geniş qaldırımdan "Kommunist" küçəsinin ortasına keçər-keçməz birdən sürətlə gələn tramvayın zəngi çalındı" [4, s.450].

**Nəticə.** Aydındır ki, Y.V.Çəmənzəminlinin bu "tədbirliliyi" kömək etmədi, bütün yaradıcılığı boyu müstəqil Azərbaycan ideyasını təlqin edən, bu yolda əmək sərf edib, qələm çalan Y.Vəzirin bəraəti yox idi. "M.Ə.Rəsulzadə haqqında ilk fikir söyləyənlərdən biri Y.V.Çəmənzəminli olmuşdur. Onun "Biz kimik və istədiyimiz nədir?" kitabı, "Millət" qəzetində dərc etdirdiyi "Azərbaycan və azərbaycanlılar", "Azərbaycan" qəzetində çap olunmuş "Xarici siyasətimiz", "Milli və mədəni işlərimiz" silsilə məqalələri bu və ya digər şəkildə M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Müsavat partiyasının proqram və məramnaməsinin şərhi və aydınlaşdırılması istiqamətində yazılmışdır. Qeyd olunmalıdır ki, Müsavat partiyasının Kiyev şöbəsinin əsası Y.V.Çəmənzəminli tərəfindən qoyulmuşdur. Həmin partiyanın 1917-ci il oktyabrın 26-31-də Bakıda keçirilən I qurultayında

"Azərbaycana muxtariyyət" şüarı irəli sürülmüş və elə həmin ildəcə Yusif Vəzirin "Azərbaycan muxtariyyəti" kitabı nəşr olunmuşdur" [8, s.13].

1935-ci ildə Əli Hüseyn Zadə "İnqilab və mədəniyyət" jurnalının iki sayında (4 və 5) "Qızlar bulağı" haqqında məqalə yazmış və əsəri tamamilə mahiyyətindən ayıraraq kəskin tənqid etmişdir: "Biz bu əsərə qiymət verirkən, onun yuxarıda qeyd etdiyimiz məsələləri inqilabi proletar müasirliyi tələbatına nə dərəcəyə qədər uyğun olaraq işıqlandıra bildiyini nəzərə almalıyıq... "Qızlar bulağı" başdan ayağa uzaq keçmişin tozlu səhifələrini canlandırmağa çalışıb... "Qızlar bulağı"ndakı tarixi faktlar zaman və məkan etibarilə müəyyən bir çərçivəyə salınmadığı kimi müəllifin fantaziyasında, tənqidi-nöqteyi nəzərdən təhlil bir yana dursun, daha da təhrif edilmiş, öz tarixiliyini itirib saxta bir mifologiyaya çevrilmişdir" [9, s.84].

Y.V.Çəmənzəminlinin repressiya olunması üçün saysız-hesabsız "əsaslar" ortaya atıla bilərdi, lakin məhz bu romanların təhlillərindən başlanan ittihamlar ipucu kimi onu repressiya qurbanıtək ölümə apardı...

## ƏDƏBİYYAT


1. Salamoğlu T. Müasir Azərbaycan romanı: janr təkamülü (XX əsrin 80-ci illəri) Bakı, "Nafta-Press". 2007
2. Hüseynoğlu T. Odun biri İrandırsa, digəri Rusiyadır. http://artkaspi.az/az/odun-biri-irandirsa-digeri-rusiyadir-professor-tofiq-huseynolu/#.XDM2TNIzY_4
3. İ.Sadıq. Yusif Vəzir Çəmənzəminli və Şumer qaynaqları. AMEA, "Ədəbiyyat məcmuəsi" Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi əsərləri. Bakı, 2017, № 3.
4. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. II cild. Bakı, "AVRASİYA PRESS", 2005.
5. Müzakirə: Formalizm və naturalizm əleyhinə. "Ədəbiyyat qəzeti". 1936-cı il, 14 aprel.
6. "Ədəbiyyat qəzeti", 1937-ci il, 10 iyun.
7. İbrahimov Əli. Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri. Bakı, "Nurlan", 2008.
8. Sultanlı V. İstiqlal sevgisi. Bakı, "Elm və təhsil", 2014.
9. Əli Hüseyn Zadə. Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romanı haqqında. "İnqilab və mədəniyyət", 1935, №4.